# Gender Bərabərliyi



www.scfwca.gov.az

Buklet Almaniya Beynəlxalq Əməkdaşlıq
Təşkilatı tərəfindən maliyyələşdirilib.

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# Gender **bərabərliyi nədir?**

**Gender bərabərliyi** - qadın və kişilərin hüquq bərabərliyini və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanları və onların cəmiyyətdə bərabər sosial vəziyyətini özündə ehtiva edir. Ümumilikdə gender isə ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhətidir. Gender əsaslı ayrı-seçkilik cəmiyyətin sağlam inkişafına maneə törədən başlıca amildir.

**Gender stereotipləri** - qadın və kişilərin həyatda özlərini necə aparmalı olduqlarına dair cəmiyyətdə tərtib edilmiş, ümumiləşmiş təsəvvürlər gender stereotipləri adlanır.

**Gender rolları** - sosial rolların bir növü, qadın və kişi üçün gözlənilən davranış tərzi (və ya normaları) toplusudur.

**Gender büdcəsi** - bütün səviyyələrdə büdcənin həyata keçirilməsində və qiymətləndirilməsində gender amilinin nəzərə alınmasını, gender indikatorlarının işlənib hazırlanmasını və gender balansının gözlənilməsini nəzərdə tutur.

**Gender indikatorları** - cəmiyyətdə müəyyən müddətdə baş verən gender əhəmiyyətli dəyişiklərin ölçülməsi üçün keyfiyyət və kəmiyyət göstəriciləridir.

**Gender təhlili** - cəmiyyət və dövlətin bütün sahələrində mövcud və ya təklif olunan proqramlar, qanunvericilik, dövlət siyasəti vasitəsilə qadınlara və kişilərə göstərilən təsirin qiymətləndirilməsi prosesidir.

**Gender meynstriminq** - cəmiyyətin bütün səviyyələrində siyasi qərarların qəbul edilməsi zamanı gender amilinin nəzərə alınması strategiyasıdır.



## Gender bərabərliyinin ümumi siyasətə daxil edilməsi

Gender perspektivlərinin ümumi siyasətə daxil edilməsi 1995-ci ildə keçirilmiş Pekin konfransından bu vaxta qədər gender bərabərliyi və qadın hüquqlarının möhkəmləndirilməsi və dəstəklənməsi üçün qlobal səviyyədə qəbul edilmiş strategiya olmuşdur. Gender bərabərliyinin təmin edilməsinin ümumi siyasətə daxil edilməsi gender amilinin ölkədə hazırlanan bütün normativ hüquqi aktlara, dövlət proqramlarına və inkişaf konsepsiyalarına daxil edilməsini nəzərdə tutur.

## Gender bərabərliyinin təmin edilməsi üzrə dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

- gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması, təkmilləşdirilməsi və inkişafı;
- normativ hüquqi aktların gender ekspertizasından keçirilməsi;
- gender bərabərliyinin təmin edilməsi üçün dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;
- gender bərabərliyi mədəniyyətinin təbliği, ictimai maarifləndirmə siyasətinin həyata keçirilməsi. Eyni zamanda nəzərə almaq lazımdır ki, cinsi mənsubiyyətə görə ayrı-seçkilik ölkənin iqtisadi geriliyinə səbəb olur və yoxsulluğun artmasına rəvac verir. İnsan kapitalının inkişafına mənfi təsir göstərən ayrı-seçkiliyin aradan qaldırılması məhz gender bərabərliyinin təminatı ilə tənzimlənir. Dövlətin tərəqqisi isə yalnız bərabər iqtisadi imkanlar şəraitində baş tuta bilər.
- Gender bərabərliyi yoxsulluğun azaldılması, davamlı inkişafın təmin olunması və səmərəli idarəçiliyin qurulması üçün zəruri olan şərtlərdən biridir.

## Gender bərabərliyi özündə demokratiyanın təməl prinsiplərini daşıyır.

**"Bütün insanlar bərabər hüquqludurlar"**
Gender bərabərliyi, 1948-ci il İnsan Hüquqları haqqında Ümumdünya Bəyannaməsində təsbit edilmiş insan hüquqları sisteminin əsas elementidir.

1979-ci ildə qəbul edilmiş Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında konvensiya (CEDAW) qadınlara qarşı ayrı-seçkilik anlayışını müəyyən edir və bu ayrı-seçkiliyə son qoymaq üçün iştirakçı dövlətlər qarşısında öhdəliklər qoyur.

Azərbaycan 1995-ci ildən etibarən bu Konvensiyaya və 2001-ci ildə Konvensiyaya Əlavə Protokola qoşulmuşdur.

CEDAW – qadın hüquqlarının müdafiəsi haqqında əsas beynəlxalq sənəddir. Konvensiyaya hal hazırda 189 ölkə qoşulmuşdur.

1995-ci ildə Pekində keçirilən BMT-nin Qadınlarının IV Ümumdünya Konfransı Pekin Fəaliyyət Platformasının qəbul edilməsi ilə nəticələnmişdir.

# **Pekin Fəaliyyət** Platforması (PFP)

**12 ƏN VACİB** PROBLEM SAHƏSİ

PFP tərəfindən müəyyən edilmişdir:

1. Qadınlar və yoxsulluq
2. Təhsil və qadınlar
3. Qadınlar və səhiyyə
4. Qadınlara qarşı zorakılıq
5. Qadınlar və hərbi münaqişələr
6. Qadınlar və iqtisadiyyat
7. Qadınların rəhbər orqanların işində və qərar qəbuletmə prosesində iştirakı
8. Qaçqın və məcburi köçkün qadınlar
9. Qadınların insan hüquqları
10. Qadınlar və ətraf mühit
11. Qız uşaqları

> **“Qadınlar və kişilər arasında bərabərlik – insan hüquqlarının ayrılmaz, sosial ədalət, həmçinin inkişaf və sülh üçün mühüm və fundamental şərtdir”**

- Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində qadınlarla kişilərin bərabərliyi aşağıdakı kimi təsbit edilmişdir:
Hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları var. Dövlət, irqindən, milliyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmək vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

- "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi" 6 mart 2000-ci il tarixli AR Prezidentinin Fərmanı gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsi üzrə dövlət siyasətinin yaradılmasının əsasını qoydu.
- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 sentyabr 2000-ci il tarixli, 176 saylı Qərarına əsasən gender məsələləri üzrə məsul şəxslərin təyin edilməsi ilə bütün dövlət qurumları və digər təşkilatların gender bərabərliyinin təmin edilməsi ilə bağlı fəaliyyəti təkmilləşdirilmişdir. Nəticədə, gender problemləri bu strukturların siyasətlərinə və proqramlarına daxil edilməsi aktuallaşmağa başlamışdır. Bu halda nazirliklər və digər dövlət təşkilatları gender problemləri ilə bağlı əldə olunmuş nailiyyətlərin monitorinqini asanlıqla aparmaq imkanı əldə edir.
- Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.
- Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-ci il tarixli 361 nömrəli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi ləğv edilərək, onun əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Komitə ölkədə ailə, qadın və uşaq problemləri sahəsində dövlət siyasətini həyata keçirən, bu sahələrdə inkişafı təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.
- Bu sahədə əsas nailiyyətlərdən biri də Azərbaycan Respublikasının Milli Məclisində Ailə, Qadın və Uşaq Məsələləri üzrə yeni Komitənin yaradılması olmuşdur.



- Ölkəmizdə gender bərabərliyinin təşviqi sahəsində atılmış mühüm addımlardan biri 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi olmuşdur. Qanunun mühüm cəhəti qadınların insan hüquqlarından və fundamental azadlıqlardan istifadə etmələrinə mane olan halların, onlara qarşı müəyyən kök salmış ayrı-seçkiliyin təzahürlərinin tanıdılıb ortaya qoyulmasıdır.
  Qanunun 3-cü maddəsinə görə aşağıda sadalananlar ayrı-seçkilik hesab olunmur:
  Qadınlar üçün Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş güzəştlər, imtiyazlar və əlavə təminatlar;
  Kişilər üçün həqiqi hərbi (alternativ) xidmətə çağırış;
  Kişi və qadınlar üçün qanunla müəyyənləşdirilmiş fərqli pensiya yaşı;
  Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 15-ci maddəsinə uyğun olaraq, ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılması;
  Kişi və qadınlar üçün cəzaçəkmə müəssisələrində fərqli şəraitin yaradılması;
  Gender bərabərliyinin təmin edilməsi məqsədi ilə xüsusi tədbirlərin həyata keçirilməsi.

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında

- Ölkədə gender bərabərliyinin təmin olunmasının diqqət mərkəzində saxlanılması və onun həlli istiqamətində gender əsaslı zorakılıq hallarının qarşısının alınması;
- Məişət zorakılığına məruz qalmış şəxslər üçün yardım mərkəzlərinin və sığınacaqların yaradılması;
- Orta təhsildən yayınma və erkən nikahlarla mübarizə, eləcə də zorakılıq üzrə monitorinq sisteminin tətbiqi;
- Qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların təmin edilməsi, qadınların işdə irəli çəkilməsi, qadınların rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi məsələləri öz əksini tapmışdır.

## DİM-lərin 5-ci məqsədi gender bərabərliyinə nail olmaq, bütün qız və qadınların səlahiyyətlərini artırmağa həsr olunmuşdur. 5-ci məqsəddə qeyd olunur:

Respublikamız Birləşmiş Millətlər Təşkilatının (BMT) üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulmuşdur.

Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu yeni məqsədlər Minilliyin İnkişaf Məqsədlərinin əldə etdiyi nəticələrə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir.

Dünyanın hər yerində bütün qadınlara və qızlara qarşı ayrı-seçkiliyin bütün formalarına son qoymaq;

Dövlət və özəl sahələrdə bütün qadınlara və qızlara qarşı bütün formalarda zorakılığı, o cümlədən insan alveri, cinsi və digər növlərdə istismarı aradan qaldırmaq;

Uşaq nikahı, erkən və məcburi nikah və qadın cinsi orqanının zədələnməsi (sünnəti) kimi bütün zərərli təcrübələri aradan qaldırmaq;

Siyasi, iqtisadi və ictimai həyatda qərarların qəbulu prosesinin bütün səviyyələrində qadınların tam və səmərəli iştirakını və bərabər rəhbərlik imkanlarını təmin etmək;

Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransın Fəaliyyət Proqramı, Pekin Fəaliyyət Platforması və fəaliyyətlərin icrasının nəzərdən keçirilməsi ilə bağlı digər konfransların yekun sənədlərində razılaşdırıldığı kimi, hamı üçün cinsi və reproduktiv sağlamlıq xidmətlərinə çıxışı və reproduktiv hüquqları təmin etmək;

Milli qanunvericiliyə uyğun olaraq qadınlara iqtisadi resurslara bərabər çıxış hüquqlarına, habelə əsas xidmətlərə, torpaq və əmlak formaları üzərində mülkiyyət və nəzarətə, maliyyə xidmətləri, miras və təbii ehtiyatlara çıxışlarını təmin etmək;

Qadınların səlahiyyətləndirilməsini təşviq etmək üçün, köməkçi texnologiyalardan, xüsusilə də informasiya və kommunikasiya texnologiyalarından istifadəni genişləndirmək;

Gender bərabərliyinin təşviq olunması və bütün qadınların və qızların səlahiyyətlərinin bütün səviyyələrdə artırılması üzrə əsaslı siyasətlər və effektiv hüquqi normalar qəbul etmək və onları möhkəmləndirmək.

DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Şura tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikası üçün prioritet hesab edilən məqsəd, hədəf və onlara uyğun göstəricilərin layihəsinə əsasən genderlə bağlı 5-ci məqsədə aid bütün hədəflər prioritet olaraq seçilmişdir.

**2016-cı il 6 dekabr tarixli "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə** qadınların əmək məhsuldarlığının artırılması (işçilərin övladları ilə bağlı qayğılarının azaldılması, ixtisaslı qadın işçilərin bilik və təcrübəsində fasiləsizliyin qorunması yolu ilə) və məşğulluqda gender bərabərliyinin qorunması baxımından tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

2016-cı il 6 dekabr tarixli "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakı, qadınların məşğulluğunun artırılması ilə bağlı xüsusi proqramların qəbulu və kənd yerlərində startapların genişləndirilməsi, kənd yerlərində qadınların peşə hazırlığının gücləndirilməsi və onların məşğulluğunun artırılması nəzərdə tutulmuşdur.



## Azərbaycan Respublikasının qanunvericiliyində cinsi mənsubiyyətinə görə ayrı-seçkilik yolverilməzdir. Bu əməlin törədilməsinə görə qanunvericilikdə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

**Azərbaycan Respublikası Əmək Məcəlləsi Maddə 12. İşəgötürənin əsas vəzifələri və məsuliyyəti**

Əmək münasibətləri sahəsində işəgötürənin əsas vəzifələri aşağıdakılardır:
İşə qəbul, işdə irəli çəkilmək, peşə hazırlığını artırmaq, yeni ixtisasa yiyələnmək və ixtisasını artırmaq zamanı, işin keyfiyyətini qiymətləndirərkən, işdən azad edərkən cinsindən asılı olmayaraq işçilərə eyni yanaşmaq və bərabər imkanlar yaratmaq;

Cinsindən asılı olmayaraq, eyni işlə məşğul olan işçilərə  eyni iş şəraitini yaratmaq, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbirini tətbiq etməmək, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün lazimi tədbirlər görmək;

**Azərbaycan Respublikası Əmək Məcəlləsi Maddə 50. Müsabiqə yolu ilə vəzifələrin tutulması zamanı əmək münasibətlərinin tənzimlənməsi**

Müəyyən vəzifələrin müsabiqə yolu ilə tutulması bir qayda olaraq elm, təhsil müəssisələrində elmi, elmi-pedaqoji fəaliyyətlə bağlı vəzifələr üzrə elan edilir. İşçilərin elan olunmuş müsabiqədə bərabərhüquqlu iştirakı təmin edilməlidir. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, yalnız bir cinsin nümayəndəsi üçün müsabiqənin elan edilməsinə yol verilmir.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsi  Maddə 154. Bərabərlik hüququnu pozma**

İrqindən, milliyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq şəxsin hüquq və qanuni mənafelərinə zərər vurmaqla şəxsin bərabərlik hüququnu pozma- min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə - iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsi Maddə 164. Hamilə qadının və ya himayəsində üç yaşınadək uşağı olan qadının, üç yaşınadək uşağını təkbaşına böyüdən kişinin əmək hüquqlarını pozma**

Qadının hamiləliyinə və ya himayəsində üç yaşınadək uşağı olmasına görə, həmçinin kişi üç yaşınadək uşağını təkbaşına böyütdüyünə görə onunla əmək müqaviləsini əsassız ləğv etmə—iki min manatdan üç min manatadək miqdarda cərimə ilə cəzalandırılır.